AZƏRBAYCAN RESPUBLİKASININ
RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ
DÖVLƏT MÜLKİ AVİASİYA AGENTLİYİ

ƏMR

№ 27/4

Bakı şəhəri "14" aprel 2022-ci il

"Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi Qaydası"nın qüvvəyə minməsi barədə

"Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası" nın 3.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə "Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi Qaydası"nın layihəsi işlənib hazırlanmışdır.

Sözügedən sənədin tətbiqini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi haqqında Əsasnamə"nin 5.6.6-cı yarımbəndini rəhbər tutaraq,

əmr edirəm:

1. "Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi Qaydası" 15 aprel 2022-ci il tarixindən qüvvəyə minsin.
2. Dövlət Mülki Aviasiya Agentliyinin (DMAA) və "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin aidiyyəti mütəxəssisləri tərəfindən Qaydanın öyrənilməsi və icrası təmin edilsin.
3. Qayda DMAA-nın rəsmi internet saytında dərc edilsin.
4. Əmr bütün şəxsi heyətə çatdırılsın.
5. Əmrin icrasına nəzarət direktorun müavini Hacıağa Hacıyevə həvalə edilsin.

Direktor **Arif Məmmədov**

Dövlət Mülki Aviasiya Agentliyinin
direktorunun
27/4№-li 14 aprel 2022-ci il tarixli
Əmri ilə
TƏSDİQ OLUNUB

HAVA LİMANLARI VƏ AERODROMLARIN TƏHLÜKƏSİZLİK ZONALARINDA BİNALARIN, QURĞULARIN VƏ OBYEKTLƏRİN YERLƏŞDİRİLMƏSİNƏ RAZILIQ VERİLMƏSİ QAYDASI

Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Agentliyi

Sənəd № AAR-GM-006

Nəşr № 01

Qüvvəyə minmə tarixi: 15 aprel 2022-ci il

Bakı şəhəri

https://www.caa.gov.az

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ

0.1 Mündəricat

0 SƏNƏDƏ NƏZARƏT VƏ İDARƏEDİLMƏ 1

0.1 Mündəricat 1

0.2 Səhifələrin Siyahısı 2

0.3 Sənədin Yayılma Siyahısı 3

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı 4

1 Ümumi müddəalar 5

2 Əsas anlayışlar 5

3 Qaydanın tətbiqi dairəsi 6

4 Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə dair ümumi tələblər 6

5 Təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə dair xüsusi tələblər 7

6 Təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılığın alınması üçün sorğu 8

7 Təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinin ilkin qiymətləndirilməsi 10

8 Müəyyən edilmiş tələblərə uyğun olmayan obyektlərin sökülməsi 10

9 Təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinin razılaşdırılması üçün digər dövlət qurumları ilə əməkdaşlıq 11

Əlavə 1 – Sorğu Forması 12

Əlavə 2 – Rəy 14

0.2 Səhifələrin Siyahısı

Səhifə	Qüvvəyə minmə tarixi	Reviziya №
1	15.APR.2022	00
2	15.APR.2022	00
3	15.APR.2022	00
4	15.APR.2022	00
5	15.APR.2022	00
6	15.APR.2022	00
7	15.APR.2022	00
8	15.APR.2022	00
9	15.APR.2022	00
10	15.APR.2022	00
11	15.APR.2022	00
12	15.APR.2022	00
13	15.APR.2022	00
14	15.APR.2022	00
15	15.APR.2022	00
16	15.APR.2022	00

0.3 Sənədin Yayılma Siyahısı

Nüsxə №	Nüsxənin tipi	Şöbə	Yerləşdirilib:
Master	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma İdarəsi	DMAA-nın kitabxanası/ Intranet
1	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma İdarəsi	Q-Pulse
2	**(S)**	Keyfiyyətə nəzarət və normayaratma İdarəsi	DMAA-nın rəsmi internet saytı

(S) Soft Copy - (Eelektron nüsxəsi)

(H) Hard Copy – (Çap olunmuş nüsxəsi)

Qeyd: *Çap olunmuş və ya bu siyahıda göstərilməmiş elektron və çap olunmuş sənədin nüsxəsi "nəzarətsiz" hesab olunur.*

0.4 Düzəliş və Dəyişikliklərin Qeydiyyatı

Nəşr/Dəyişiklik №:	Nəşr/Dəyişikliyin tarixi:	Qüvvəyə minib:	Səbəb
Nəşr № 01	15.APR.2022	Dir.Əmri № 27/4 14.04.2022	

Nəşr: Cari nüsxəyə qədər bütün əvvəlki düzəlişləri birləşdirən sənədin nəşri. Sənədin yeni nəşri göy rəngdə göstərilən düzəlişləri əks etdirmir. Sənədin cari nüsxəsi hər səhifənin aşağı kolontitulunda göstərilir.

Düzəliş: Mətndə göy rəngdə yazılan və ya sənədin sağ tərəfində şaquli xətt ilə müşahidə olunan sənədin müəyyən hissəsinə edilmi şdəyişiklik. Əsas dəyişilkilər (nömrə və tarix) haqqında məlumat Rəhbərlik sənədin actual məlumatlar siyahısında, müvafiq səhifənin başlığında və mətnin özündə göstərilmişdir.

1 ÜMUMİ MÜDDƏALAR

1.1 Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 3.3.8-ci yarımbəndinə uyğun olaraq hazırlanmışdır və hava limanları və aerodromların uçuş əraziləri zonalarında inşa edilən və ya yerləşdirilən obyektlərin, qurğuların uçuşların aeronaviqasiya təminatına və təhlükəsizliyinə məhdudiyyət təsirlərinin qiymətləndirilməsi və razılaşdırılmasının əsas istiqamətlərinə, uçuşların təhlükəsizliyinin təmin edilməsində bilavasitə iştirak edən hava limanları və aerodrom ərazilərində bina, qurğu və ya obyektlərin yerləşdirilməsinə dair əsas tələbləri, qaydaları və tədbirlər məcmusunu nəzərdə tutur.

1.2 Bu Qayda "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) standartları və tövsiyə olunan təcrübəsi, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının hava məkanından istifadə Qaydaları", habelə uçuşların təhlükəsizliyi sahəsində mütərəqqi beynəlxalq təcrübə nəzərə alınaraq hazırlanmışdır.

1.3 Bu Qaydanın əsas məqsədi uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə dair tələblərin və belə razılığın verilməsi əsaslarının müəyyən edilməsidir.

2 ƏSAS ANLAYIŞLAR

2.1 Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1 **Aerodrom** - istənilən bina, qurğu və avadanlıq daxil olmaqla hava gəmilərinin enməsi, qalxması və yerdə hərəkəti üçün tamamilə, yaxud qismən istifadəsi nəzərdə tutulmuş yer və ya su səthinin müəyyən sahəsi;

2.1.2 **Aerodromyanı ərazi** - hava gəmilərinin uçuşlarının təhlükəsizliyinin, hava limanının uzunmüddətli inkişaf perspektivlərinin və əhalinin sanitariya və epidemioloji rifahının təmin edilməsi, o cümlədən, aerodrom avadanlığı və hava gəmilərinin istismarının insan sağlamlığı və ətraf mühitə mənfi təsirlərinin qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 fevral 2014-cü il tarixli, № 51 nömrəli qərarı ilə təsdiq edilmiş "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar" da müəyyən edilən və istifadəsinə xüsusi tələblər tətbiq olunan zona;

2.1.3 **Aerodrom Nəzarət Nöqtəsi (ANN)** – aerodromun coğrafi mövqeyini müəyyən edən nöqtə;

2.1.4 **Hava limanları və aerodromların təhlükəsizlik zonaları (aerodroma aid obyektlərin və maneələrin nəzarəti və qeydiyyatı zonası)** – nəqliyyat infrastrukturu zonasına daxil olan və üzərində hava gəmilərinin manevr etdiyi aerodrom ətrafındakı ölçüləri məhdudlaşdırılmış ərazi;

2.1.5 **Sorğu verən orqan** – hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin tikintisi və yerləşdirilməsinin həyata keçirilməsinə müvafiq rəyin alınması üçün sorğu vermiş tikintiyə icazə verən orqan;

2.1.6 **Maneə** – hər hansı hərəkətsiz (müvəqqəti və ya daimi) və ya mobil obyektlər, yaxud

onların hissələri, hansı ki:

2.1.6.1 Hava gəmilərinin yerüstü hərəkəti üçün nəzərdə tutulmuş məkanda yerləşdirilib;

2.1.6.2 Uçuşda olan hava gəmilərinin qorunması üçün müəyyən edilmiş məhdudlaşdırıcı səthi keçir;

2.1.6.3 Bu Qaydanın 2.1.6.2-ci yarımbəndində müəyyən edilmiş məhdudlaşdırıcı səthlərdən kənarda yerləşir və qiymətləndirmənin nəticəsinə uyğun olaraq aeronaviqasiya üçün təhlükə törədir.

2.1.7 **MSL (Mean Sea Level)** – okean və dənizlərdə sərbəst su səthinin şərti qəbul edilmiş başlanğıca nisbətən şaquli xətt üzrə vəziyyəti;

2.1.8 **Nəqliyyat infrastrukturu zonası** - şəhərlərarası və beynəlxalq avtomobil, dəmiryol, hava, dəniz və çay nəqliyyatı obyektləri və komplekslərinin yerləşdiyi zonalardır. Təyinatından asılı olaraq, bir neçə infrastruktur növü üçün birgə zona yaradıla bilər. Əhaliyə xidmət üçün nəzərdə tutulan vağzallar, stansiyalar, limanlar və aeroportlar yerləşdirilərkən sərnişinlərin rahat istifadəsi və təhlükəsizliyi, müxtəlif növ nəqliyyat vasitələrinin hərəkət intensivliyi və istiqaməti nəzərə alınmalıdır.

2.1.9 **Uçuş-Enmə Zolağı (UEZ)** – quruda yerləşən aerodromun üzərində olan, hava gəmilərinin yerə enməsi və havaya qalxması üçün hazırlanmış müəyyən düzbucaqlı sahə;

2.1.10 **Uçuş-Enmə Zolağının (UEZ)** astanası – uçuş-enmə zolağının eniş üçün yararlı olan hissəsinin başlanğıcı.

2.2 Bu Qaydada istifadə olunan digər anlayışlar “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda və bu sahəni tənzimləyən digər normativ hüquqi aktlarda nəzərdə tutulan mənaları ifadə edir.

3 QAYDANIN TƏTBİQİ DAİRƏSİ

3.1 Bu Qayda Azərbaycan Respublikasında nəqliyyat infrastrukturu zonasına daxil olan və mülki hava gəmiləri istismar olunan hava limanları və aerodromların təhlükəsizlik zonalarında (bundan sonra - təhlükəsizlik zonaları) obyektlərin, qurğuların inşa edilməsi və ya yerləşdirilməsinin uçuşların təhlükəsizliyinə təsirlərinin qiymətləndirilməsi əsasında razılaşdırılması üzrə Agentliyin fəaliyyətinə şamil edilir.

4 HAVA LİMANLARI VƏ AERODROMLARIN TƏHLÜKƏSİZLİK ZONALARINDA BİNALARIN, QURĞULARIN VƏ OBYEKTLƏRİN YERLƏŞDİRİLMƏSİNƏ DAİR ÜMUMİ TƏLƏBLƏR

4.1 Təhlükəsizlik zonalarında tikili və qurğuların hündürlüyününə dair tələblər İCAO-nun Beynəlxalq Standartları və Tövsiyə olunan təcrübəsi ilə müəyyən edilir.

4.2 Hava gəmilərinin istismarı ilə əlaqədar yaranan səs-küyün və zərərli qazların ətraf mühitə təsirinin normadan yüksək olduğu aerodroma yaxın ərazilərdə yaşayış, mədəni-məişət və sənaye obyektlərinin inşasına yol verilmir.

4.3 Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin (bundan sonra - Agentlik) Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 90 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinin 3.0.25-ci

bəndinə uyğun olaraq, Agentlik təhlükəsizlik zonalarında inşa edilməsi və ya yerləşdirilməsi planlaşdırılan obyektlərin və qurğuların konstruksiya və funksional xassələrinin aeronaviqasiya təminatına və uçuşların təhlükəsiziliyinə təsirlərini qiymətləndirərək, ölkənin mülki aviasiya hava limanlarının və aerodromlarının imkanları nəzərə alınmaqla, mülki aviasiya subyektlərinin əldə etdikləri aviasiya texnikasının Azərbaycan Respublikası ərazisində yerləşdirilməsi və istifadəsi məsələlərini razılaşdırır.

4.4 Aviasiya təhlükəsizliyi və uçuşların təhlükəsizliyinin təmin olunması məqsədilə hüquqi və fiziki şəxslərə təhlükəsizlik zonalarında tikinti, layihələndirmə və inşaat işlərinin həyata keçirilməsinin razılaşdırılması Azərbaycan Respublikasının Tikinti və Şəhərsalma Məcəlləsinin 32.1-ci maddəsinə əsasən həyata keçirilir..

4.5 Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2015-ci il 5 nömrəli qərarı ilə təsdiq edilmiş "Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların siyahısı"nın 3.3-cü yarımbəndinə əsasən, müfəssəl plan qrafiki materiallardan və izahat yazısından ibarətdir. Qrafiki materiallara hava limanına yaxın ərazilərdə tikintinin aparılması üçün məhdudiyyətli zonalar daxildir.

4.6 Hava gəmilərinin uçuşlarının təhlükəsizliyinə risk yarada bilən müvəqqəti və daimi qurğular bu Qaydada müəyyən olunmuş tələblərə uyğun olaraq gecə və gündüz nişanlama işarələri ilə təmin edilməlidirlər.

4.7 Yeni hava limanlarının, aerodromların və helikopter meydançalarının inşası və yenidən qurulması planları hazırlanan zaman aviasiya təhlükəsizliyinin səmərəli təmin edilməsi məqsədilə müvafiq infrastruktur məsələləri nəzərə alınmalıdır.

4.8 Hava limanları və aerodromların istismarı üzrə təlimatlar Agentlik tərəfindən təsdiq edilir.

5 TƏHLÜKƏSİZLİK ZONALARINDA BİNALARIN, QURĞULARIN VƏ OBYEKTLƏRİN YERLƏŞDİRİLMƏSİNƏ DAİR XÜSUSİ TƏLƏBLƏR

5.1 Agentlik təhlükəsizlik zonalarında hava gəmilərinin uçuşlarının təhlükəsizliyinə və aerodromun radiotexniki qurğularının normal iş rejiminə potensial maneələrin qiymətləndirilməsi və qarşısının alınması məqsədilə həmin zonalarda mülki aviasiya obyektlərinin tikintisi, yenidən qurulması və texniki cəhətdən təkmilləşdirilməsi ilə bağlı texniki-iqtisadi göstəricilərə və layihə-smeta sənədlərinə dair rəy verir.

5.2 Agentlik təhlükəsizlik zonalarında hava gəmilərinin uçuşlarının təhlükəsizliyinə və aerodromun radiotexniki qurğularının normal iş rejiminə potensial maneələrin qiymətləndirilməsi və qarşısının alınması məqsədilə, təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə dair rəy verir.

5.3 Obyektlərin inşası və yerləşdirilməsinin Agentlik ilə razılaşdırılması Azərbaycan Respublikası Mülki Aerodromların Dövlət Reyestrində qeydiyyata alınmış mülki aerodromların 45 km-lik radiusunda uçuşların təhlükəsizliyi nəzərə alınmaqla həyata keçirilir.

5.4 Aşağıda qeyd edilən göstəricilərə malik obyektlərin tikintisi, yerləşdirilməsi və ya köçürülməsi Agentliyin uçuşların təhlükəsizliyinə dair müsbət rəyi alındıqdan sonra həyata keçirilir:

5.4.1 Aerodromun Nəzarət Nöqtəsindən (ANN) 10 km. radiusda olan bütün obyektlər;

5.4.2 Verilmiş ərazidə yer səthindən hündürlüyü 50 metr və ya daha çox olan 45 km-lik radiusda yerləşən obyektlər;

5.4.3 Yerindən asılı olmayaraq verilmiş ərazidə yer səthindən hündürlüyü 50 metr və daha böyük hündürlüyə malik məşəl qurğuları (boru və s.);

5.4.4 Yerindən asılı olmayaraq naviqasiya radioqurğularının normal işləməsinə maneə törədə biləcək rabitə xətləri və yüksək gərginlikli elektrik ötürücüləri, eləcə də digər radio- və elektromaqnit radiasiya obyektləri;

5.4.5 Yerindən asılı olmayaraq partlayış təhlükəli obyektlər;

5.4.6 Yerindən asılı olmayaraq fəaliyyətləri aerodrom ərazilərində görünüşün məhdudlaşmasına səbəb ola biləcək sənaye və ya digər müəssisə obyektləri və qurğular;

5.4.7 ANN-dən 10 km. radiusda hava yaxınlaşmaları zolaqlarında yüksək intensivlikli işıq, şüa mənbələri.

5.5 Şəhər və qəsəbələrin inkişaf planlarının razılaşdırılması zamanı aşağıdakılar nəzərə alınır:

5.5.1 Hava gəmilərinin uçuş təhlükəsizliyi tələblərinə riayət olunması və onlardan ayrılan səs-küyün və tullantıların təsirləri;

5.5.2 Aerodromdan 15 km. radiusda quşların kütləvi toplanmasına səbəb olan qida tullantılarının, poliqonların, heyvandarlıq təsərrüfatlarının, əkin sahələrinin və digər obyektlərin konsentrat tullantılarının yerləşdirilməsinin qadağan olunması;

5.5.3 Daimi və müvəqqəti qurğuların uçuşlarının təhlükəsizliyininin təmin edilməsi məqsədilə gecə və gündüz nişanlama işarələri ilə təmin edilməsi.

6 TƏHLÜKƏSİZLİK ZONALARINDA BİNALARIN, QURĞULARIN VƏ OBYEKTLƏRİN YERLƏŞDİRİLMƏSİNƏ RAZILIĞIN ALINMASI ÜÇÜN SORĞU

6.1 Tikintiyə icazə verən orqan tərəfindən Agentliyə göndərilən sorğu bu Qaydaya 1 saylı Əlavədə müəyyən edilmiş müvafiq tərtibatda hazırlanaraq təqdim edilməlidir.

6.2 Tikintiyə icazə verən orqan sorğuya bu Qaydanın 5.4.1-5.4.7-ci yarımbəndlərində müəyyən edilmiş xüsusiyyətlərə malik bina, qurğu və ya obyektlərin tikintisinin razılaşdırılması məqsədilə Agentliyə aşağıdakı sənədləri əlavə etməlidir:

6.2.1 Bina, qurğu və ya obyektlərə icazə qərarı alınması barədə sorğu (sorğunun forması bu Qaydaya 1 nömrəli əlavə);

6.2.2 Bina, qurğu və ya obyektlərin texniki göstəriciləri haqqında sənədlər.

6.3 Ərizəyə aşağıdakı məlumatlar daxil edilməlidir:

6.3.1 Obyektin adı və (və ya) təyinatı (yaşayış binası, istehsalat binası, idman kompleksi, istilikxana, ticarət kompleksi, heyvandarlıq ferması, məişət tullantıları zibilliyi, radioötürücü qüllə, rabitə xətti, elektrik xətti və s.);

6.3.2 Obyektin xarici ölçüləri (üfüqi və şaquli ölçüləri) konstruksiya quruluşu və (və ya) obyektin inşaatında istifadə edilən qurğular, avadanlıqlar və mexanizmlərin (inşaat

kranlarının hündürlüyü və s.) qabaritləri də daxil olmaqla;

6.3.3 Ümumdünya Geodeziya Sistemi – WGS-84 üzrə DD°MM'SS.s" formatında obyektin coğrafi koordinatları haqqında informasiya;

6.3.4 Obyektin (obyektlərin) maksimum hündürlüyü onda bir ədədi qiymətinə qədər yuvarlaqlaşmış formatda (MMM.m);

6.3.5 İnşaat ərazisinin orta dəniz səviyyəsinə (MSL) nisbətən hündürlüyü onda bir ədədi qiymətinə qədər yuvarlaqlaşdırılmış (MMM.m) formatda;

6.3.6 Obyektin planda sxemi;

6.3.7 Uçuş təhlükəsizliyinə risk yarada bilən obyektin özünəməxsus xüsusiyyətləri (obyektin xarakterinə görə və ya avadanlıq, qurğuların istismarı zamanı);

6.3.8 Obyektin istismarı zamanı tüstü və ya buxar tullantılarının planlaşdırılması;

6.3.9 Obyektin istismarı zamanı zərərli maddələrin, aşındırıcı, radioaktiv buxarların atmosferə buraxılması və s.;

6.3.10 Xüsusi işıqlandırma sistemləri;

6.3.11 Elektromaqnit sahələri yaradan güc elektrik cihazlarının olması xüsusiyyətləri;

6.3.12 Quşların kütləvi toplanmasına səbəb olan fəaliyyətlər (dəyirmanlar, silos quyuları, saxlanclar, anbarlar, yeraltı anbarlar, poliqonlar və s.);

6.3.13 İstifadəsi planlaşdırılan obyektin strukturunun tikinti materiallarını göstərməklə ətraflı təsviri;

6.3.14 Miqyaslı xəritədə və ya sxemdə obyektin küçələrə (obyekt yaşayış məntəqəsində yerləşdirilərkən) və ya yaşayış məntəqələrinə (obyektin yaşayış məntəqəsindən kənarda yerləşdirildiyi zaman) nəzərən vəziyyəti.

6.4 Radiodalğaları yayan obyektlərin tikintisini razılaşdırarkən radiodalğanın yayım tezliyi və ya yayımın əhatə dairəsi, gücü, şüalanmanın istiqaməti göstərilməklə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi tərəfindən verilmiş obyektin tezliyin paylanması planına uyğun olaraq fəaliyyət göstərəcəyini təsdiq edən sənəd əlavə olunmalıdır.

6.5 Rabitə və elektrik xətləri razılaşdırılarkən aşağıdakılar göstərilməlidir:

6.5.1 Elektrik xəttinin (marşrutun) adı;

6.5.2 Razılaşdırılmış marşrutun başlanğıc və son nöqtələri;

6.5.3 Elektrik xətlərinin gərginliyi;

6.5.4 Dayaqlar və onların özüllərinin hündürlüyü;

6.5.5 Dayaqların hazırlandığı material.

6.6 Şəhərlərin, yaşayış məntəqələrinin inkişaf və planlaşdırma layihələrinin razılaşdırılması zamanı layihədə nəzərdə tutulmuş və gələcəkdə tikintisi gözlənilən binaların hündürlüyü (MSL) və qurğuların baş planı təqdim edilməlidir.

7 TƏHLÜKƏSİZLİK ZONALARINDA BİNALARIN, QURĞULARIN VƏ OBYEKTLƏRİN YERLƏŞDİRİLMƏSİNİN İLKİN QİYMƏTLƏNDİRİLMƏSİ

7.1 Tikintiyə icazə verən orqan qiymətləndirmənin aparılması məqsədilə bu Qaydanın 8-ci hissəsində qeyd edilmiş formada sorğu və texniki sənədləri Agentliyə təqdim edir.

7.2 Tikintiyə icazə verən orqanın sorğusuna tikilinin xüsusiyyətindən və tələb olunan sənədlərin həcmindən asılı olaraq ən geci 10 (on) iş günü ərzində baxılır.

7.3 Sənədlərdə çatışmazlıq olarsa, tikintiyə icazə verən orqana bu barədə 5 iş günü məlumat verilərək, zəruri sənədlərin təqdim edilməsi bildirilir.

7.4 Sənədlərdə aşkar edilən çatışmazlıqlar eyni vaxtda aşkar edilməli və aradan qaldırılması üçün tikintiyə icazə verən orqana 3 iş günü müddətində bildirilməlidir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sənədlərə baxılması davam edir.

7.5 Agentlik daxil olmuş sorğu əsasında müvafiq bina, qurğu və ya obyektlər inşa edilməsinin qanunla müəyyən edilmiş tələblərə uyğun olub-olmadığının yoxlanılması üçün 2 iş günü müddətində ekspert qrupu və 3 iş günü müddətində müfəttiş yoxlaması təyin edir.

7.6 Müfəttiş yoxlaması Agentlik tərəfindən verilmiş tapşırıq əsasında 5 (beş) iş günü müddətində həyata keçirilir.

7.7 Müfəttiş yoxlamasının işinə əlavə ekspert və mütəxəssislər cəlb edilə bilər.

7.8 Tikintiyə icazə verən orqan tikintinin həyata keçiriləcəyi müvafiq ərazidə yoxlamanın aparılması üçün zəruri şəraitin yaradılmasını təmin etməlidir.

7.9 Müfəttiş yoxlaması həyata keçirildikdən sonra müfəttiş heyəti ilkin qiymətləndirmə barədə rəyini Agentliyə təqdim edir.

7.10 Agentlik sorğunun xarakterindən və ilkin qiymətləndirmə üzrə rəydən asılı olaraq sorğunun daxil olduğu gündən 30 (otuz) gün ərzində bina, qurğu və ya obyektlərə müsbət rəy verilməsi və ya əsasları göstərilməklə ondan mənfi rəy verilməsi haqqında qərar qəbul edir.

7.11 Əlavə araşdırmaya ehtiyac olduqda bu müddət 30 (otuz) gün artırıla bilər.

7.12 İlkin qiymətləndirməyə dair rəydən asılı olaraq Agentlik bina, qurğu və ya obyektlərə müvafiq dəyişiklik edilərək sorğunun yenidən edilməsinin mümkünlüyünü tikintiyə icazə verən orqana bildirir.

7.13 Eyni məsələ ilə əlaqədar yenidən sorğu daxil olduqda, bu sorğuya bina, qurğu və ya obyektlərin yerləşdirilməsinə müvafiq dəyişikliklər edilməsi haqqında əlavə sənədlər daxil edilməklə bu Qayda ilə müəyyən olunmuş prosedur çərçivəsində yenidən baxılır.

8 MÜƏYYƏN EDİLMİŞ TƏLƏBLƏRƏ UYĞUN OLMAYAN OBYEKTLƏRİN SÖKÜLMƏSİ

8.1 Bu qayda ilə müəyyən olunmuş hava limanları və aerodromların təhlükəsizlik zonalarında tikinti qaydalarına riayət etməyən hüquqi və ya fiziki şəxslər Agentliyin müəyyən etdiyi müddət ərzində həmin bina, qurğu və ya obyektləri öz hesablarına sökməli, başqa yerə köçürməli və ya həmin qurğularda zəruri dəyişikliklər etməlidirlər.

9 TƏHLÜKƏSİZLİK ZONALARINDA BİNALARIN, QURĞULARIN VƏ OBYEKTLƏRİN YERLƏŞDİRİLMƏSİNİN RAZILAŞDIRILMASI ÜÇÜN DİGƏR DÖVLƏT QURUMLARI İLƏ ƏMƏKDAŞLIQ

9.1 Agentlik qərar qəbul edərkən zəruri olduqda aidiyyəti orqanlardan, elmi-tədqiqat institutlarından, havada hərəkətin idarə edilməsi orqanlarından, aerodrom istismarçılarından aşağıdakı məlumatları tələb etmək və almaq hüququna malikdir:

9.1.1 Obyektin hava gəmilərinin uçuşlarının radiotexniki vasitələrinə təsiri barədə;

9.1.2 Obyektin hava naviqasiya və hava hərəkəti təhlükəsizliyinə təsiri barədə;

9.1.3 Obyektin ərazisindəki havanın çirklənməsi səviyyəsindəki dəyişikliklər barədə;

9.1.4 Uçuş maneələrinin yaranması səbəbindən aerodromun ərazisindəki görüntünün pisləşməsi barədə;

9.1.5 Obyektin hava gəmilərinin ornitoloji təhlükəsizliyinin təmin edilməsinə təsiri barədə.

9.2 Tikintinin həyata keçirilməsinə rəy verilməsi haqqında sorğunun forması, o cümlədən tikintiyə rəyin forması bu Qaydaya 1 və 2 saylı Əlavələrlə müəyyən edilir.

ƏLAVƏ 1 – SORĞU FORMASI

Sorğu forması

(Agentliyə)

Obyektin tikintisinin (rekonstruksiyasının, yerləşdirilməsinin) həyata keçirilməsinə dair rəyə uyğun olaraq,

(hüquqi şəxsin adı və olduğu yer)

e-mail: telefon: faks:

(aerodromun adı)

aerodromun yaxınlığında hava gəmilərinin

uçuşlarının təhlükəsizliyinin təmin edilməsinə riayət məqsədi ilə enmə sistemlərinin təsir zonasında, radiolokasiya və radionaviqasiya obyektlərinin yaxınlığında obyektin tikilməsinə (rekonstruksiyasına, yerləşdirilməsinə) dair rəy verilməsi üçün sorğu verir.

Obyekt haqqında məlumat:

1. Obyektin konstruksiyasının təsviri (materiallar göstərilməklə):

3. Obyektin yer səthindən nisbi hündürlüyü:

4. Obyektin ən yüksək nöqtəsinin mütləq/nisbi hündürlüyü: /

5. Obyektin aerodromun nəzarət nöqtəsinə, yaxınlıqdakı yaşayış məntəqəsinə və ya digər oriyentirə nisbətən yerləşməsi:

6. Obyektin WGS-84 sistemində geodeziya koordinatları:

7. Obyektin yerləşdirilməsi planlaşdırılan ərazidə yer səthinin mütləq (dəniz səviyyəsindən) hündürlüyü:

8. Radio və elektromaqnit şüalanma mənbələri haqqında məlumatlar (mövcud olduqda):

Mənbənin tipi : yayım tezliyi:

Ötürücünün gücü: şüalanma azimutu:

Şüalanma sinfi: polyarizasiyası:

Antenanın koordinatları: antenanın hündürlüyü:

Radiotezlik və radiotezlik kanallarından istifadənin icazəsinə dair məlumat:

9. Elektrik ötürücü xətlərin xarakteristikası (yüksək gərginlikli xətlər, elektrik nəqli yolları və s.):

5. Dayaqların sayı: dayaqların hündürlüyü:

Elektrik xəttində gərginlik:

11. Əlavə məlumat:

Qoşma: 1. Obyektin yerləşmə sxemi (1:500 000 miqyaslı xəritədə)
2. Obyektin planda sxemi

Sorğu verən orqanın səlahiyyətli şəxsi:

(imza, S.A.A.)

Möhür yeri Tarix:

_____
(möhür mövcuddursa)

ƏLAVƏ 2 – RƏY

Rəy

Uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə dair

_____
_____
_____
_____

Müsbət rəy (əsasları göstərilməklə)

_____
_____
_____
_____

Mənfi rəy (əsasları göstərilməklə)

(obyektin adı/və ya təyinatı)

(obyektin ünvanı, aerodrom nəzarət nöqtəsinə və ya digər oriyentirə nəzərən yerləşməsi)

(sorğu verən orqanın tam adı və tikintiyə icazə rekvizitləri)
sorğusuna əsasən

I. Obyektin xarakteristikası:
1. Obyektin yer səthindən nisbi hündürlüyü:
2. Obyektin ən yüksək nöqtəsinin mütləq/nisbi hündürlüyü: /

3. Obyektin WGS-84 sistemində geodeziya koordinatları:

4. Obyektin yerləşdirilməsi planlaşdırılan ərazinin mütləq (dəniz səviyyəsindən) hündürlüyü:

5. Radio və elektromaqnit şüalanma mənbələri haqqında məlumatlar (mövcud olduqda):
mənbənin tipi:_____, yayım tezliyi:_____,
ötürücünün gücü: _____, şüalanma azimutu:_____,
şüalanma sinfi: _____,
polyarizasiya:_____,

antenanın koordinatları: _____, antenanın hündürlüyü_____,
radiotezlik və radiotezlik kanallarından istifadənin icazəsinə dair:_____

6. Elektrik ötürücü xətlərin xarakteristikası (yüksək gərginlikli xətlər, elektrik nəqli yolları və s.) dayaqların sayı: _____ dayaqların hündürlüyü:_____

elektrik xəttində gərginlik:

II. Tikintinin həyata keçirilməsinə dair sorğuya baxıldıqdan sonra verilən rəy:
1. Obyektin tikintisi (rekonstruksiyası, yerləşdirilməsi) uçuşların təhlükəsizliyini

Təmin edir / Təmin etmir
(lazım olmayanı silin)

2. Obyektin tikintisi (rekonstruksiyası, yerləşdirilməsi) enmə sistemlərinə, radilokasiya və radionaviqasiya qurğularının işinə təsir etmir / təsir edir

(lazım olmayanı silin, tikintinin hansı qurğuya təsirini göstərin)

3. Obyektin tikintisi razılaşdırılır / razılaşdırılmır
(lazım olmayanı silin)

III. Obyektin razılaşdırmaya yol verilən maksimal xarakteristikası:

(tikinti razılaşdırıldıqda doldurulur, cari sənədin **I** bəndinə istinad olunur və ya

mövcud olduqda obyektin digər texniki xarakteristikaları, məhdudiyyətləri göstərilir)

Agentliyin direktoru
(S.A.A.)

(imza)

Möhür yeri Tarix:

BU SƏHİFƏ QƏSDƏN BOŞ SAXLANILIB